**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QURANİ-KƏRİMİN TƏRBİYƏ METODU VƏ VASİTƏLƏRİ

İxtisas: 7213.01 – Dinşünaslıq

Elm sahəsi: Fəlsəfə


İddiaçı: **Sara Dostəli qızı Məmmədova**


Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissetasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Ərəbdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbərlər: Akademik
**Vasim Məmmədəli oğlu Məmmədəliyev**

Filologiya elmləri doktoru, professor
**Kamandar Kazım oğlu Şərifov**

Rəsmi opponentlər: Fəlsəfə elmləri doktoru, professor
**Kazım Ağamirzə oğlu Əzimov**

İlahiyyat üzrə fəlsəfə doktoru
**Ceyhun Valeh oğlu Məmmədov**

Fəlsəfə üzrə fəlsəfə doktoru
**Şölət Əlövsət oğlu Zeynalov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 4.03–Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Fəlsəfə elmləri doktoru, dosent
**Zəkiyyə Ağababa qızı Əbilova**

Dissertasiya şurasının elmi katibi: İlahiyyat üzrə fəlsəfə doktoru, dosent
**Məmmədəli Allahverdi oğlu Babaşlı**

Elmi seminarın sədri: Fəlsəfə elmləri doktoru, professor
**Əsədulla Cuci oğlu Qurbanov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Milli-mənəvi, mədəni-tarixi və dini ənənələr cəmiyyətdəki əxlaq normalarının və davranış qaydalarının formalaşmasında çox mühüm rol oynayır. *"İnsan təfəkkürünün dərinliklərinə qədər nüfuz etmiş dini dünyagörüşü özünün zənginliyi və müxtəlifliyi ilə meydana çıxmışdır"*.[1]

Ölkəmizin müstəqillik qazanması ilə milli-mənəvi dəyərlərimizə münasibət tamamilə dəyişmiş, cəmiyyətin əxlaq prinsiplərinin müəyyənləşdirilməsində İslam dininin rolu xeyli artmış, elm və həqiqət mənbəyi olan müqəddəs kitabımız Qurani-Kərim cəmiyyətin həyatına daha dərin nüfuz etmişdir. Məlum olduğu kimi, Qurani-Kərimdə insanın yaşam tərzi, onun cəmiyyətdəki davranış qaydaları ilə bağlı tərbiyəvi əhəmiyyətə malik çoxlu məqamlar mövcuddur. Bütün bunların əsasında bu ilahi kitabın şəxsiyyətin formalaşması və onda müsbət davranış keyfiyyətlərinin inkişaf etdirilməsi ilə bağlı xüsusi tərbiyə metodu formalaşmışdır. Quranın ən əsas və mühüm məqsədi əxlaqlı cəmiyyət formalaşdırmaq olduğundan insanın dünyaya gəlməsindən başlayaraq həyatının sonuna qədər onu izləyir, mənəvi inkişafının təmin olunması üçün müxtəlif metod və vasitələrindən istifadə edir.

Qurani-Kərimə görə, insan elm və tərbiyə ilə hidayət olunur və onun hərtərəfli inkişafi təmin olunur. İnsan elmi atmosferdə alimlərin və müəllimlərin təsiri ilə kamillik dərəcəsinə çatmağa nail olur. Allah-Təala Qurani-Kərimin "Əl-Bəqərə" surəsinin 129 ayəsində peyğəmbərlərin (ə) əsas missiyasının insanları öyrətmək və tərbiyə etmək olduğunu bildirir. Bu baxımdan, İslam Peyğəmbəri (s) də bəşər övladının mənəvi kamilliyə yetişməsi və bir şəxsiyyət kimi formalaşdırılması üçün seçilmişdir. Nümunə və ibrət götürmək məsələsi İslamın aparıcı tərbiyə vasitələrindən biri olmaqla cəmiyyətin hidayət olunmasında mühüm rola malikdir. Məhz buna görə də, Allah kəlamında müxtəlif təşbehlər gətirilir, müqayisələr aparılır, yaxşı əxlaqlı insanlarla pis davranışlı olanlar qarşı-qarşıya qoyulur, insana nümunə və ibrət götürmə imkanları verilir. Qurani-Kərim "Əl-Əhzab" surəsinin 21-ci ayəsində ən kamil və nümunəvi insan obrazını cəmiyyətə etalon olaraq göstərir. Bu baxımdan Məhəmməd (s) ən gözəl

[1] Писманик Г., Религия в истории и культуре, 1998, с. 27

insan modeli hesab olunur. Özünün doğru həyat tərzi ilə insanlar arasında bir günəş kimi parlayan Peyğəmbərimiz (s) onlara bir nümunə və cəmiyyətin həqiqət yolunda addımlamasında bir vəsilə olmuşdur. Məhəmməd (s) hədislərinin birində buyurmuşdur: *"Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim"*.[2]

Qurani-Kərim insanın həyatında nümunə anlayışına işarə etməklə cəmiyyətin müəyyən müsbət xarakterik xüsusiyyətlərinin formalaşmasında onun rolunu qeyd edir və bu işin vacibliyini vurğulayır. Müqəddəs kitabımızda Fironun həyat yoldaşı Asiyanın, İsa (ə) peyğəmbərin anası Məryəm xanımın həyat yolunun işıqlandırılması, onların müəyyən gərgin vəziyyətlərdə səbir, təmkin və ixlasla rəftar etmələrinin ön plana çəkilməsi onlardan nümunə götürməyin vacibliyinə işarədir. Burada Yusif (ə) həyatına Quran prizmasından nəzər salmaq, onun keşməkeşli həyat yolunu izləmək, uzun illər həbsxana divarları arasında yaşamasına baxmayaraq, haqq yolundan dönməməsi insanlar üçün nümunə və etalon olmaqdadır. Qurandakı nümunəvi yaşam tərzinə olan çağırış bununla bitmir, digər peyğəmbərlərin (ə), o cümlədən İbrahim (ə), İsmayıl (ə), Yaqub (ə), Əyyub (ə) və s. peyğəmbərlərin (ə) cəmiyyətə nümunə olması qeyd olunur.

İnsanın tərbiyə məsələsi, onun şəxsiyyətinin formalaşması müasir dövrün aktual problemlərinə aid olmaqla bir çox elm sahələrinin, fəlsəfənin, sosiologiyanın, psixologiyanın, pedaqogikanın, psixofiziologiyanın, neyrofiziologiyanın və s. maraq sahəsinə aiddir.

Son vaxtlar din öz qayda-qanunlarını bərpa etməklə insanın bir çox həyat sahələrində, xüsusilə də, onun tərbiyəsində mühüm rol oynamağa başlamışdır. Bu tədqiqat işinin məqsədi də, məhz, İslam dininin müqəddəs kitabı olan Qurani-Kərimin insan tərbiyəsinə, onun bir şəxsiyyət kimi formalaşmasında göstərdiyi təsiri araşdırmaqdır.

Yaşadığımız əsrdə sürətli texnoloji inkişaf, cəmiyyətin həyatında baş verən ictimai təbəddülatlar, gənclərimizin milli-mənəvi dəyərlərimizdən müəyyən mənada uzaqlaşmağa həvəs göstərərək xalqımızın mentalitetinə uyğun gəlməyən zərərli adətlərə meyl etmələri dissertasiya işinin aktuallığını şərtləndirən amillərdəndir.

Problemin qısa tarixi icmalını verərkən qeyd edilməlidir ki, XX əsrin sonlarından başlayaraq postsovet məkanında baş vermiş ictimai-siyasi

[2] Topbaş O., Haqqa həsr olunmuş gənclik, Bakı, 2011, 321 s.

hadisələr nəticəsində müxtəlif xalqlar, o cümlədən Azərbaycan xalqı özünün milli-mənəvi və əxlaqi dəyərlərini yenidən yaşatmaq, dini düşüncəsini bərpa etmək məqsədilə Allah kəlamını araşdırmağa meyl göstərməyə başlamışdır. İlk növbədə Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi[3] ilə başlanan həmin hərəkat indi də uğurla davam etməkdədir. Əsrimizin əvvəllərində Quranın filoloji baxımdan tədqiqinə dair bir neçə ciddi əsərlər[4] meydana gəldi. İlk vaxtlar Quranın filoloji[5] araşdırılması ilə başlanan həmin işlər son zamanlar Quranın elmi[6], fəlsəfi[7], ictimai[8] və qiraət[9] yönümlü təhlili ilə davam etməkdədir.

Elmi-texniki tərəqqinin sürətli inkişafı, ictimai-sosial münasibətlərin durmadan dəyişməsi və günbəgün artan informasiya axını cəmiyyətin əxlaqi dəyərlərinə bu və ya digər dərəcədə təsir etməkdədir. Bu da öz növbəsində tərbiyə metodlarında daha faydalı üsullardan istifadə etməyi şərtləndirir. Bu baxımdan, məhz Qurani-Kərimin tərbiyə metodu və vasitələrinin öyrənilməsi və təhlil edilməsi ziyalılarımızın qarşısında duran ən vacib məsələlərdən biridir. Ölkəmizdə bu sahədə müəyyən addımların atılmasına baxmayaraq, Allah kəlamının tərbiyə metodu və vasitələri bütövlükdə, kompleks şəkildə tədqiqata cəlb edilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti bütün müsəlmanların müqəddəs kitabı olan Qurani-Kərim, predmeti isə, onun tərbiyə metodu və vasitələridir.

**Tədqiqatın məqsəd və vəzifələri** dünya müsəlmanları üçün çox qiymətli olan Qurani-Kərimin tərbiyə metodu və vasitələrini elmi əsaslarla

---

[3] Bünyadov Z., Məmmədəliyev V., Qurani-Kərimin Azərbaycan dilində tərcüməsi, Bakı, 1997

[4] Qasımova A., Cahiliyyət ərəblərinin əqli-mənəvi durumu, Bakı, "Elm", 2007; Quliyeva M., Quran bəlağəti və Azərbaycan ədəbiyyatı, Bakı, 2008; Məmmədov N., Qurani-Kərimin orfoqrafik xüsusiyyətləri, Bakı, 2004

[5] Məmmədov N., Qurani-Kərimin üslub xüsusiyyətləri, Bakı, 2008

[6] Məmmədəliyev V., Quran və elm, Bakı, 2006

[7] Müslihi F., İslamda rasionalizmin sosial aspektləri, Fəlsəfə üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2015

[8] Tağızadə G., Müasir Azərbaycanda qeyri- ənənəvi İslam təlimlərinin yayılması, Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya, Bakı, 2016

[9] Mürsəlov M., Kisainin qiraət sistemi, Fəlsəfə üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2013

araşdırmaqdan ibarətdir. Bu problemin həlli dinşünaslığımızın nəzəri-elmi bazasının daha da zənginləşməsinə kömək edəcəkdir.

**Tədqiqat metodları.** Dissertasiyada qoyulan məsələlər Quran, hədis və başqa ilkin qaynaqlar əsasında müqayisəli şəkildə təhlil edilmiş, buraya Orta əsrlər İslam maarifinə aid mötəbər əsərlər də cəlb edilmiş, elmi müqayisələr aparılmış və mövzunun müasirlik baxımından əhəmiyyəti yeni elmi baxışlarla əsaslandırılmışdır. Bundan əlavə, dissertasiya işinin müvafiq bölmə və paraqraflarının hazırlanmasında təsvir və müşahidə üsullarından da istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Araşdırma zamanı tədqiqatın əsas müddəalarını aşağıdakı istiqamətlərdə müəyyənləşdirməyə çalışmışıq:

- Qurani-Kərimdə ruhun tərbiyəsi
- Ruhun ibadətlərlə və qeybə imanla tərbiyəsi
- Allahın qəzavü-qədəri ilə razılaşmaq
- Qurani-Kərimdə ağlın tərbiyəsi və imanla küfr arasında seçim imkanı
- Aydın əqli düşüncənin üstün tutulması və təqlidçiliyin əleyhinə olmaq
- Yeni məsələlərdə ağıl və ictihada üstünlük vermək
- Qurani-Kərimdə cismin tərbiyəsi
- İnsanlarla hədiyyələşmək, tərbiyədə əhdə vəfa və sirri qorumaq metodu
- Gözəl nümunə, vaxt məfhumu, tədricilik prinsipi və gözəl nəsihət
- Quran və hədislərdə ticarət əxlaqı, fikir, düşüncə, mükafat və cəza
- Qissə, zərbi-məsəl, hikmətli sözlər, sual və cavab
- Elm və ədəb, səbir və ədalət

**Tədqiqatın elmi yeniliyi.** İnsanları oxumağa, öyrənməyə sövq edən Qurani-Kərim hələ Peyğəmbərin (s) sağlığında özünün qeyri-adi ifadə tərzi ilə cəmiyyətin diqqətini cəlb etmişdir. İslamın sərhədləri genişləndikcə, yeni mədəniyyətin daşıyıcıları başqa xalqların da elmi təcrübələrindən bəhrələnərək qiymətli əsərlər yazmışlar. Lakin Quranın dərin mənalar kəsb etməsi həm ərəb, həm də qeyri-ərəbləri bu ilahi kitabı müxtəlif cəhətlərdən öyrənməyə və tədqiq etməyə sövq etmişdir. Quran elmləri içərisində diqqəti cəlb edən və cəmiyyətin doğru yolda inkişafını təmin edən sahələrindən biri də onun tərbiyə metodu və vasitələri olduğundan bu sahə alimləri daha çox cəlb etmiş, onlar Allah kəlamının insanların tərbiyəsi ilə

bağlı ayələrini tədqiq və təhlil etməyə başlamışlar. İslamın əsas məqsədi gözəl insan tərbiyə etmək, onun əxlaq normalarını müəyyənləşdirmək və cəmiyyətin gələcək normal inkişafını təmin etmək olduğundan müqəddəs kitabımız daim filosofların diqqət mərkəzində olmuşdur. Məhz buna görə də, Quranın tərbiyə metodu Orta əsrlərdən bəri ayrı-ayrı alimlərin tədqiqat obyekti olmuşdur.

Ölkəmizdə şərqşünaslığın inkişafı, əsasən SSRİ dönəmi ilə bağlı olduğundan, həmin dövrdə ateizm dünyagörüşünün aparıcı mahiyyət daşıması və buna görə də dini mənbələrin və xüsusilə də Qurani-Kərimin tədqiqatdan kənarda qalması səbəbindən onun tərbiyə metodu və vasitələri də araşdırmaların obyekti olmamışdır.

Yuxarıda qeyd olunanları nəzərə alsaq, deyə bilərik ki, Qurani-Kərimin tərbiyə metodu və vasitələri Respublikamızda indiyə qədər heç bir tədqiqatın predmeti olmamış və dinşünaslığımızda ilk dəfə olaraq bu məsələnin kompleks şəkildə tədqiqinə səy göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya Quranın tədqiqinə dair gələcək elmi axtarışlara nəzəri və metodoloji zəmin yarada bilər. Onun elmi-nəzəri müddəaları dinşünaslıq və islamşünaslığın müasir dönəmdə başqa humanitar elmlərlə əlaqəsinin daha geniş elmi müstəvidə tədqiqi üçün əhəmiyyətli ola bilər. Tədqiqatın mətni bu sahədə araşdırmaların aparılmasında və dərsliklərin yazılmasında qiymətli material hesab oluna bilər. Bundan başqa, gənc nəslin milli adət-ənənələrimiz və mənəvi-əxlaqi dəyərlərimiz çərçivəsində tərbiyə olunmasında bu elmi işin mətnindən istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları artıq mətbuatda işıqlandırılmışdır. Respublikamızın müxtəlif elmi jurnallarında və xaricdə (Misir, Ukrayna) nəşr olunmuş məqalələrdə dissertasiyanın əsas məzmunu tam şəkildə əhatə edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Ərəbdilli əlyazmalarin tədqiqi" şöbəsində yerinə yetirilərək müdafiəyə təqdim olunmuşdur.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə həcmi.** Giriş 19.671, I fəsil 98.857, II fəsil 154.064 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi 280.761 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, problemin tarixi icmalı verilir, dissertasiyanın elmi və təcrübi əhəmiyyəti göstərilir.

Birinci fəsil **"Qurani-Kərimin tərbiyə üsulu"** adlanır və beş paraqrafdan ibarətdir. Fəslin "Qurani-Kərimdə ruhun tərbiyəsi" adlı birinci paraqrafında bildirilir ki, insan cisim və ruhdan ibarət bir varlıqdır. Allah-Təala onu ən gözəl biçimdə və surətdə yaratmış və beləliklə də Özünün qüdrət əlamətlərini izhar etmişdir.

İnsan tərbiyəsində məhz bu cəhətə-ruha diqqət yetirmək və bu işdə səhlənkarlığa yol verməmək lazımdır. İnsanın birtərəfli, yalnız cismani tərbiyəsi müsbət nəticələr əldə etməyə kifayət etmir, bəlkə də, çox hallarda əks nəticələrə gətirib çıxarır.

Qədim yunan filosofu Epikür (e.ə. 342-271) duyğuların obyektiv məzmununu göstərməklə yanaşı, ruhu maddi varlıq hesab edir və onun fikrincə, ruh da atomlardan təşkil olunmuşdur. O deyirdi ki, insan öləndən sonra onun atomlardan ibarət olan ruhu da məhv olur, odur ki, həyat zövqü yalnız bu dünyaya məxsusdur. Qədim Roma filosofu Seneka (e.ə. IV əsr) ruhu odla havanın birləşməsi hesab etmişdir. Epikürçülüyün ən görkəmli nümayəndəsi Tit Lukretsi Kara (e.ə. 95-55) görə, ruh bədəndən ayrılmazdır, bədən ruhsuz hiss edə bilməz, ruh da bədənsiz heç bir fəaliyyət göstərə bilməz. Bədənin ölməsi ilə birlikdə ruh da ölür. III əsrdə yaşamış Roma filosofu Platonun (205-270) fikrincə, ruh ilahi varliqdan maddi varlığa müəyyən keçid anıdır. Ruh bədənlə üzvi sürətdə bağlı deyildir, o, ümumdünya ruhunun bir hissəsidir.[10]

Ruh kəlməsinin mənası barədə alimlər arasında əsrlər boyu mübahisələr getsə də, onlar bu məsələdə konkret bir fikrə gələ bilməmişlər. Bu məfhumla bağlı mübahisələr o qədər geniş vüsət almışdır ki, məsələnin mahiyyətinə aydınlıq gətirmək məqsədilə Allah-Təala Qurani-Kərimdə bu mövzuya da münasibət bildirmişdir: *(Ya Rəsulum!) Səndən ruh (ruhun mahiyyəti və keyfiyyəti) haqqında soruşarlar. De: "Ruh Rəbbimin*

[10] Ramazanov F., Fəlsəfə (Ali məktəblər üçün dərslik), Bakı, 1997, s. 72-76

*əmrindədir. (Allahın əmri ilə yaradılmışdır). Sizə (bu barədə) yalnız cüzi (az) bir bilik verilmişdir!" [Əl-İsra: 17/85]*

İbn Qəyyum bu mövzuya həsr etdiyi "Kitab ər-Ruh" əsərində ruhun mahiyyəti haqqında belə yazır: *"O, yəni ruh, mahiyyəti olmayan, nurdan ibarət, yüngül, bədəndə hərəkətdə olan bir varlıqdır".*[11]

Qurani-Kərim insanın ruhi cəhətdən tərbiyə olunmasını bu əsaslar üzərində cəmləşdirir:

Ruhun ibadətlərlə tərbiyəsi. İbadətlər İslamda ruhi tərbiyənin ən böyük üsullarından biridir. Dinimizdəki ibadətlər canla, malla, can və malla edilən ibadətlər daxil olmaqla gündəlik, həftəlik və ayliq olmaq üzrə müxtəlif növlərə bölünür. İnsanın canla yerinə yetirdiyi ən gözəl ibadət namazdır. Məhz namazda insanla Xaliqi arasında heç bir vasitə mövcud olmur, o, tam əmniyyət, yəqinlik, rahatlıq içində olur.

Allah-Təalaya tam bağlılıqla, səmimi şəkildə, qəlbində iman nuru ilə qılınan namaz insanın həyat şəraitinə təsir edir, onu pisliklərdən çəkindirir. İnsana bir müsibət üz verdiyi zaman onun ağrısını azaldıb, ona nicat verən səbir və namazdır: *"(Müsibət vaxtında) səbir etmək və namaz qılmaqla (Allahdan) kömək diləyin!..." [Əl-Bəqərə: 2/45]*

Qurani-Kərim insanı paklıq və təmizliyə çatdıran ibadət növlərindən biri kimi zəkata böyük önəm verir. Zəkat Allahın insana bəxş etdiyi maldan Allah yolunda sərf etməsidir ki, bunun da müsəlman ruhunun tərbiyəsində böyük rolu vardır.

Qurani-Kərim ruhu tərbiyə edən və onu yüksəldən əməli ibadətlərdən biri kimi oruc tutmağı qeyd edir. Oruc tutmaq insanın həvayi-həvəslə mübarizə aparması üçün bir tərbiyə məktəbidir.

Bildiyimiz kimi qarın və mədə bütün xəstəliklərin ortaya çıxdığı bir mərkəzdir. "*Pəhrizin ən gözəl şəkli mədəni dincəltməklə bir çox zərərli maddələri təmizləyən oruc tutmaqdır".*[12] Oruc tutmaq insanı günün müəyyən vaxtlarında yemək, içmək və s. kimi əməllərdən çəkindirməklə yanaşı, onda digər həmcinslərinə qarşı mərhəmət hissi yaradır, onu yaxşı işlərə sövq etdir, pis işlərdən çəkindirir. Bununla da insan nəfsin əsiri olmaqdan xilas olur, səbir və ixlasla əxlaqını təmizləyərək Rəbbinə yaxınlaşır.

---

[11] ابن القيم الجوزية، الروح ، بيروت، ١٩٩٦، ص. ٣٦٧

[12] Demirci, Muhsin, Kuranın ana konuları, İstanbul, 2010, s. 255

İnsanı sübh azanından məğrib azanına qədər maddi qida və müəyyən əməllərdən qoruyan oruc onun iradəsini möhkəmləndirir, nəfsani istək və arzularına qalib gəlir, nəfsi tərbiyə edir, əxlaqı paklaşdırır və təqvanı gücləndirir.

Müsəlmanın ruhunu tərbiyə edən, onu kamal dərəcəsinə yüksəldən əməli ibadətlərdən biri də həcc ibadətidir. Bu ibadət paklanma və təmizlənmə baxımından ilahi nemətlərdən biri hesab olunur: "*...Onun yoluna (ərzaq, minik, və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur...*" *[Ali-İmran: 3/97]*

Həcc ziyarəti günahların kəffarəsi hesab olunur. Peyğəmbər (s) hədislərinin birində buyurur: *"Allah yolunda Həcc ziyarətini yerinə yetirib hədyan danışmayan və günah etməyən oradan yeni doğulmuş uşaq kimi (günahsız) qayıdır".*[13] Müsəlman Yer kürəsinin hər tərəfindən müxtəlif rəngli, müxtəlif dillərə malik, ayrı-ayrı təbəqələrə məxsus dindaşları ilə eyni libasda Allahın evini təvaf edib, həcc ziyarətini yerinə yetirərkən ümmətin əlaqələrinin möhkəmliyi onda böyük ruh yüksəkliyi yaradır.

Əxlaqı təmizləyən və ruhu paklaşdıran əməli ibadətlərdən biri də gecə (qiyamul-leyl) ibadətidir. Əksər insanların yatdığı, hər tərəfin qaranlığa büründüyü sakit və səssiz gecələrdə yuxudan oyanıb Rəbbinə dua etməyin, gecə namazı qılmağın, Quran tilavət etməyin ləzzətini müxlis bəndələr bilər. Gecənin bir vaxtı yuxunun ən ləzzətli məqamında qalxaraq Uca Rəbbi qarşısında səcdə etməklə insan davamlı şəkildə paklaşdığını hiss etməyə başlayır. Qurani-Kərim möminlərin gecə qalxıb ibadət etmələrini və Quran oxumalarını belə bəyan edir: *"Şübhəsiz ki, gecə (namaz qılmaq üçün) qalxmaq (çox çətin olsa da) daha əlverişli və (o zaman) söz demək (Quran oxumaq, dua etmək) daha münasibdir!" [Əl-Muzzəmmil: 73/6]*

*"Gecə ibadət etmək insandan səbir və təmkinlik tələb edir. Bu isə öz növbəsində insanın mənəvi paklığına və ruhi saflığına gətirib çıxarır".*[14]

Ruhu tərbiyə edib onu təmizləyən mənəvi ibadət növlərindən biri də Allah-Təalaya məhəbbət bəsləməkdir. Saleh, mömin bəndələr Allahı sevir və bütün varlığı ilə Ona inanaraq hər vəchlə Ulu Yaradana yaxınlaşmağa can atırlar. Təbii ki, bu məhəbbət cavabsız qalmır və Ulu Xaliq tərəfindən

---

13 البخاري، محمد بن إسماعيل، صحيح البخاري، بيروت، ٢٠٠٢، ص.١٤١

14 د: أكرم ضياء العمري، التربية الروحية و الاجتماعية في الإسلام، ١٤١٧ه\١٩٩٧، ص. ٤٠

sevgi ilə cavablandırılır: "*Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman (ürəklərdə) bir sevgi yaradacaq...*" *[Məryəm: 19/96]*

Qurani-Kərimin bildirdiyi kimi ruhu tərbiyə edən ibadətlərdən biri də Allaha təvəkkül etmək və işləri Ona təslim etməkdir. Təvəkkül etmək qəlbən, sidq ürəklə Allaha bağlanmaq, dünya və axirət işlərinin həllində Ondan başqasına güvənməməkdir. "*İnanmaq lazımdır ki, Allah hər şeyin sahibidir, istədiyini verər, istədiyini alar, xeyir də, şər də ondandır*".[15] "*... Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər ...*" *[Ət-Talaq: 65/3]*

Məlum olduğu kimi, həyatda ən çətin işlərdən biri də elm öyrənməkdir. Bu işdə səbir və cəhdlə yanaşı təvəkkül etmənin də böyük rolu vardır. Nəsrəddin Tusi "Adabül-mütəəllimin" əsərində yazır: *"Elm öyrənən tələbə təvəkkül etməlidir".*[16]

İnsanın ruhunu təmizləyib paklaşdıran ibadətlərdən biri də tövbə etməkdir. İnsan etdiyi günahı başa düşüb tövbəyə çalışırsa, deməli Uca Allahın varlığını qəbul edir və Onun günahları bağışlayan olmasına inanaraq daxilində bir rahatlıq və sakitlik yaratmağa can atır. Təbiidir ki, insan günah etdiyi zaman nə qədər ləzzət alırsa alsın, o, işin sonunda peşmançılığını hiss edir və həmin işin günahını öz üzərindən qaldırmağa çalışır. Bunun yeganə yolu isə bütün gizli və aşkar işləri görən Yaradana tövbə etmək, Onun məğfirətini qazanmaqdır. Peyğəmbər (s) qüdsi hədislərinin birində Allah-Təalanın belə buyurduğunu bildirir: *"Ey mənim qullarım, siz gecə və gündüz xətalara yol verirsiniz, Mən isə günahları bağışlayıram. Məndən bağışlanma diləyin ki, sizi bağışlayım".*[17]

İnsan ruhunu təmizləyib rahatlığa çatdıran qövlü ibadətlərdən biri də Allah-Təalanı zikr etməkdir. Allahı zikr etməklə insanın ruhu qidalanır və buna görə də zikr ruhun qidası hesab olunur. *"Zikr qəlblərin şəfası, ruhların qidası, günah xəstəliyinin dərmanı, könüllərin şəfası, gözlərin nurudur".*[18] Allahı zikr etmək insanın qəlbini fərəh, sevinc və rahatliqla doldurur, ona qüvvət və inam verir.

İnsan ruhunu təmizləyən və qəlbini nurlandıran qövlü ibadətlərdən biri də dua etməkdir. *"Duanın müstəcəb olmasına gəldikdə, o, müxtəlif*

---

[15] ابن رجب، جامع العلوم والحكم، بيروت، ١٤٢٩/٢٠٠٨، ص.٤٠٩

[16] Tusi N., Adabül-mütəəllimin, (ərəb d. tər. Şərifli K.) Bakı, 2002, s. 17

[17] مسلم، أخرجه مسلم في الصحيح كتاب البر والصلة والاداب، ١٩٨٦، ص. ٤

[18] İslamoğlu M., Tövsiyələr-1, Bakı, "Şərq-Qərb", 2010, s. 70

*şərtlərlə bağlıdır və onlardan bir qismi dua edən şəxsin özündən, bir qismi zamandan, başqa bir qismi isə məkandan asılıdır".*[19]

Zahirən adi görünən bu hal, əslində insanın mənəvi böyüklüyü və Yaradana olan şükrü kimi qiymətləndirilməlidir. Allah-Təala təkəbbür sahiblərini sevməz: *"Rəbbiniz buyurdu: Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim!" [Ğafir: 40/60]*

Yuxarıda qeyd etdiyimiz ibadət növləri insanın ruhunu tərbiyə edir, onu ucaldır və Allaha yaxınlaşdırır. İnsan gecə də, gündüz də, səfərdə də, evdə də, gizlində də, aşkarda da, bir sözlə, həyatının bütün məqamlarında həmin ibadətlərlə birgədir.

Ruhun qeybə imanla tərbiyəsi. İnsanın qeybə (görmədiklərinə, eşitmədiklərinə, hiss etmədiklərinə və dərk etmədiklərinə) inamı onun cəmiyyətlə peyğəmbərlərinin (ə) dili ilə danışan, gözlərin görməkdən, qulaqların eşitməkdən aciz qaldığı Rəbbini təsdiq etməyin dəlilidir. Mömin bəndə Allahın varlığına iman etdiyi kimi bütün qeyb aləmini də qəbul edib ona inanmalıdır: "*O kəslər ki, qeybə (Allaha, mələklərə, qiyamətə, qəza və qədərə) inanır, (lazımınca) namaz qılır və onlara verdiyimiz ruzidən (ailələrinə, qohum-qonşularına və digər haqq sahiblərinə) sərf edirlər" [Əl-Bəqərə: 2/3].*

İnsan qeybə bütünlüklə inanmalı, etdiyi əməllərinə görə axirətdə cavab verəcəyini düşünərək ruhunu təmizləməli və beləliklə də addım-addım Allaha yaxınlaşmalıdır.

Allahın qəzavü-qədəri ilə razılaşmaq. Qəzavü-qədərə inanmaq imanın əsaslarından birini təşkil edir. İnsan qəzavü-qədərə inanmırsa, onun imanı naqis hesab olunur. İnsana qəzqvü-qədəri seçmək imkanı verilməmişdir. Çünki Allah-Təala bütün işləri əvvəlcədən təqdir etmişdir. Belə demək mümkünsə, hər bir şey Allahın qəzavü-qədərinə və hikmətinə bağlıdır: "*Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə (lazım olduğu qədər) yaratdıq" [Əl-Qəmər: 54/49].*

*"İnsan qəzavü-qədərə inanıb işlərini Xaliqə təslim etdiyi zaman qəlbi sakitləşir, nəfsi aram tapır, ruhu dincəlir".*[20] İnsan işlərini Allaha

---

[19] Əbilova Z., Axund Hacı Ağamirzə Əbdülkərim Ağa Badkubinin müasir Azərbaycan islamşünaslığında yeri, Bakı, 2013, s.77

[20] Məmmədova S., Ruhun qeybə iman və qəzavü-qədərlə razılaşmaqla tərbiyəsi, BDU Şərqşünaslıq fakültəsinin 95 illik yubileyinə həsr olunmuş "Şərqşünaslığın

təslim etdiyi zaman pisliklər barəsində fikirləşmir və hətta ona bir bəla üz verdikdə səbir və səbatla dözür, qəlbini gərginliyə salmır, bəla üzərinə bəla gətirmir: "*O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman: "Biz Allahınıq (Allahın bəndələriyik) və (öləndən sonra) Ona tərəf (Onun dərgahına) qayıdacağıq!" deyirlər" [Əl-Bəqərə: 2/156].*

Məhz bu şəkildə qəzavü-qədərə inanmaq nəticəsində insanın ruhu paklaşaraq Mütləq Varlığa yaxınlaşır və insan tərbiyələnməyə başlayır.

Allahın nəzarətində olmaq şüurunu inkişaf etdirməklə tərbiyələnmək. Hər bir insanın ruhi tərbiyəsində vacib olan üsullardan biri də bütün aşkar və gizli işlərinin Allahın nəzarətində olduğunu dərk etməsidir. İnsan bilməlidir ki, o bir məxluq olaraq dünyada nəzarətsiz buraxılmamış, kiçik və böyük, günah və savab olan bütün əməlləri qeydə alınır və Qiyamət günü bu işlərə görə cavabdehdir: "*Sizdən sözünü gizlədən də, onu açıq deyən də, gecənin qoynunda gizlənən də, gündüz aşkar gəzib dolanan da (Allah üçün) eynidir" [Ər-Rad: 13/10].*

Buna bənzər fikirlərə Quranın "Qaf" surəsinin 18-ci, "Ğafir" surəsinin 19-cu, "Əl-Ənbiya" surəsinin 47-ci və "Əl-Hədid" surəsinin 4-cü ayələrində də rast gəlmək mümkündür.

Bu fəslin ikinci paraqirafında Qurani-Kərimdə ağlın tərbiyəsindən bəhs edilir. Bildirilir ki, müxtəlif dövrlərdə bir çox alimlər ağlın mahiyyəti barədə özünəməxsus fikirlər söyləmiş, lakin bu məsələdə qəti və vahid bir rəyə gələ bilməmişlər. "*Alimlərin ümumi fikrinə görə, ağıl yaxşını pisdən seçən bir məfhumdur*"[21]. Qeyd etmək lazımdır ki, ağıl kəlməsi önəmli mahiyyət daşıyaraq Qurani-Kərimdə dəfələrlə qeyd olunmuşdur: *"Onlar: "Əgər biz (peyğəmbərlərin öyüd-nəsihətinə) qulaq asıb ağlımızı başımıza yığsaydıq, cəhənnəm əhli içində olmazdıq!" – deyəcəklər" [Əl-Mülk: 67/10].*

Ağıl kainatda cərəyan edən hadisələr arasında məntiqi bir əlaqə qurmağa, hadisələrin nə üçün və necə meydana gəldiyini qavramağa və bütün bunların əsasında bir nəticə əldə etməyə çalışır. İslamın ağla üstünlük verməsinin təzahürlərindən biri də insanı elm öyrənməyə təşviq etməsidir. Uca Yaradan elm sahiblərinə yüksək dəyər verir, bilənləri bilməyənlərdən

---

aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları, Bakı, 2017, s.173

[21] ابن السعدي، تيسير الكريم الرحمن في تفسير كلام المنان، ١٤٢٣هـ ذ\٢٠٠٢ م.، ص.١٦٢

fərqləndirir. “*Qurana görə, insanın özündə və dünyada ibrət alacağı bir çox dəlillər və hadisələr vardır”.*[22]

Üçüncü paraqrafda Qurani-Kərimdə cismin tərbiyəsi mövzusu tədqiq olunur. Qeyd olunur ki, İslam düşüncəsinə görə, ruh və cisim eyni bir varlığın-insan həyatının müxtəlif aspektləridir. Quranın bildirdiyinə görə, o, öz həyatını məhv etməklə axirətdə qurtuluşa nail ola bilməz. *“İnsan Allahın yerdəki yaradılışını sevmədən ərşi göylərə ucalan Rəbbini sevə bilməz”.*[23]

İnsanın cismi onun ruhunu, ağlını, hissiyyat üzvlərini hifz edən bir damara bənzəyir. Bu baxımdan, islamın müqəddəs kitabı Qurani-Kərim insanın ruhi cəhətdən sağlamlığı ilə yanaşı, cismani sağlamlığına da böyük önəm verir.

İnsan bədəni öz güc və qüvvəsini saxlamaqdan ötrü daim qidalanmağa, başqa sözlə desək, yeməyə və içməyə möhtacdır. Yer üzərində müxtəlif növlü və çoxlu sayda ruzilər xəlq olunmuşdur. Lakin bütün bunların hamısı qidalanmaq üçün yararlı olmadığından və ya insan orqanizminə müəyyən təhlükə yarada biləcəyindən Allah-Təala tərəfindən onların bir hissəsi halal, digəri isə haram buyrulmuşdur: *“Ey insanlar! Yer üzündəki qidaların təmiz, halal olanlarını yeyin, Şeytanın izi ilə getməyin!” [Əl-Bəqərə: 2/168]*

Qurani-Kərim insana cismani cəhətdən tərbiyələnməyin üsul və yollarını göstərir. Quranın insan cismini tərbiyə etmə metodlarından biri də intiharı haram buyurması, insanı öz əli ilə təhlükəyə atmaqdan çəkindirməsi və ya orqanizminə hər hansı bir şəkildə zərər yetirməsini qadağan etməsidir.

Allah-Təala qisas və ədalətli cəza hökmünü verərək haqsız olaraq yer üzərində qan tökülməsinin qarşısını almaq istəyir və beləliklə də, insanın yaşamaq hüququnu və sağlamlığını təmin edir.

Yuxarıda qeyd olunanları nəzərə alsaq, belə bir nəticəyə gələ bilərik ki, insanın hərtərəfli inkişafı onun ruhi tərbiyəsi ilə yanaşı, cismi tərbiyəsi ilə də sıx surətdə bağlıdır.

---

[22] Okumuş, Dr. Bünyamin, Kurandan Ögütler c. II, Diyanet İşleri Başkanlığı, Ankara, 2011, s. 112

[23] Кулиев Руфат, Ислам-догма или путь познания?, Баку, 2008, с. 98; Кулиев Эльмир, Коран и глобализация: в поисках гуманистических идеалов, Баку, Абилов, Зейналов и сыновья, 2005, с. 185-186

Dördüncü paraqraf insanlarla hədiyyələşmək və comərdlik nümayiş etdirmək mövzusuna həsr olunub. Burada bildirilir ki, İslam dini insan həyatının bütün aspektlərini əhatə edən prinsipləri ehtiva edir. Dinimiz müsəlmanlar arasındakı qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində hədiyyələşməyə böyük önəm verir.

Hədislərdə də hədiyyələşmə ilə bağlı müfəssəl hökm və məlumatlara geniş yer verilmişdir. Bütün məsələlərdə olduğu kimi, hədiyyələşmə mövzusunda da Peyğəmbərin (s) həyatı rəhbər tutulmalıdır. O, (s) hədiyyələşmənin əhəmiyyətindən bəhs edərək buyururdu: *"Hədiyyələşin ki, bir-birinizə qarşı sevginiz artsın".*[24]

Hədiyyələşmə zamanı başlıca məqsəd hədiyyənin dəyəri deyil, qarşı tərəfə verilən diqqət və sevgidir. Hansı şəkildə, hansı ad altında olursa olsun, İslam dini rüşvət almağı və verməyi haram sayır. Başqa sözlə, ona "hədiyyə" adının verilməsi onu haramdan halala çevirməz. Məhəmməd (s): "*Hədiyyə hədiyyə olduğu halda onu qəbul edin. Dinə qarşı bir rüşvətə çevrildiyi zaman onu qəbul etməyin*"[25] – deyə ədalətə qarşı olan hədiyyələşməni qadağan etmişdir.

Qurani-Kərimin tərbiyə üsullarından biri də insana cəmiyyətdə səxavətli olmağı aşılamaqdır. Səxavətin peyğəmbərlər (ə) və övliyalara məxsus əsas fəzilətlərdən biri olduğunu nəzərə alsaq, onun nə qədər böyük əhəmiyyət daşıdığını dərk edərik. Səxavətin fəziləti barədə çoxlu hədislər mövcuddur. Məlum olduğu kimi, səxavətin əksi xəsislikdir və onun bir çox səbəbləri vardır. Onun ən başlıca səbəbi isə dünya malına olan sevgidir.

Beşinci paraqraf təlim və tərbiyədə əhdə vəfa və sirri qorumaq metodu ilə bağlıdır. Göstərilir ki, İslam düşüncəsi insanın tərbiyələnməsində mühüm amillərdən biri kimi hər kəsin öz həddini bilməsinə, ona aid olmayan işlərə müdaxilə etməməsinə və sirrin qorunması prinsiplərinə böyük diqqət yetirir. Qədim bir ərəb atalar sözündə deyildiyi kimi: *"Kim özünə aid olmayan işə müdaxilə edərsə, xoşuna gəlmədiyi ilə rastlaşar".*[26] Qurani-Kərim bu xüsusda belə buyurur: *"(Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə. Çünki qulaq, göz və ürək - bunların hamısı sorğu-sual olunacaqdır" [Əl-İsra: 17/36].*

---

[24] مالك بن أنس، الموطأ، القاهرة، ١٤٣٤هـ - ٢٠١٣ م.، ص. ٩٠٨

[25] الهيثمي نور الدين، مجمع الزوائد ومنبع الفوائد، القاهرة، م. ٤، ١٩٩٤، ص. ٢٨٣؛ ابن الحجر العسقلانى، المطالب العالية بزوائد المسانيد الثمانية، الكويت، ١٩٩٨،ص. ٢٦٧

[26] عثمان قدري مكانسي، من اساليب التربية في القرآن الكريم، بيروت، ١٤٢٢\\٢٠٠١، ص. ١٠٨

Sirr saxlamağa gəldikdə isə, qeyd etmək lazımdır ki, əgər onu iki nəfər bilirsə, artıq o, sirr olma xüsusiyyətini itirir.

Dissertasiyanın ikinci fəsli "**Qurani-Kərimin tərbiyə vasitələri**" adlanır. Fəsil altı paraqrafdan ibarətdir. Birinci paraqrafda gözəl nümunə və gözəl nəsihət mövzusu təhlil edilir. Bildirilir ki, İslam insan cəmiyyətinin qorunması, onun ilahi əmrlər və tarixi ənənələr nəticəsində əldə etdiklərini daha da təkmilləşdirərək gələcək nəsillərə çatdırılmasında çox maraqlıdır. Cəmiyyətin inkişafı prosesində diqqəti cəlb edən cəhətlərdən biri də odur ki, dünyaya göz açan hər bir körpə, ilk növbədə ən yaxın ətrafını müşahidə edir, onu əhatə edən doğmalarının xasiyyət və davranışlarını qəbul etməyə çalışır.

İslamın tərbiyə vasitələrindən söhbət gedərkən göz önünə gələn ilk vasitə, təbii ki, Qurani-Kərimdir. İslam Peyğəmbərinin (s) dünya və axirət işlərində məhz Quran hökmləri və göstərişləri əsasında yaşaması buna bariz nümunədir. *"Məhəmməd (s) həyatı Quranın göstərişlərinin əməldə ifadəsi olmuşdur".*[27] Müsəlmanlara gəldikdə, gözəl nümunə seçməkdə onların bəxti daha çox gətirmişdir. Belə ki, Uca Allah Qurani-Kərimdə buyurur: "*Həqiqətən, Allahın Rəsulu ... Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!" [Əl-Əhzab:33/21]*

*"Qeyd etmək lazımdır ki, İslami tərbiyədə gözəl nümunə ən müvəffəqiyyətli və güclü təsirə malik vasitələrdən biri sayılır".*[28]

*"Həzrəti Əlidən (ə) nəql olunur ki, Peyğəmbər (s) insanlar içərisində ən əliaçıq, qəlbigeniş, doğru danışan, öhdəliklərinə ən yaxşı vəfa edən, yumşaq təbiətli, mülayim davranışlı və sözün əsil mənasında, bütün insani keyfiyyətləri ehtiva edən bir şəxsiyyət idi".*[29]

İnsan fitrətən elə xəlq olunmuşdur ki, zaman-zaman gözəl sözə, ibrətamiz məsəllərə və nəsihətlərə ehtiyac duyur. İnsanın tərbiyə olunmasında, onun cəmiyyətin ləyaqətli üzvlərindən birinə çevrilməsində, haqqı-nahaqdan, halalı-haramdan ayırmasında digər üsul və vasitələrlə yanaşı nəsihət və gözəl söz deməyin də böyük əhəmiyyəti vardır. Qeyd

[27] Qazəli M., Peyğəmbər sünnəsi fəqih və mühəddislərin nəzərində, Bakı, CBS, 2009, s. 114

[28] Məmmədova S., Gözəl nümunə, nəsihət, əhdə vəfa və sirri qorumaq islami tərbiyənin metodları kimi, BDU İlahiyyat fakültəsinin elmi məcmuəsi, Bakı, № 29, iyun (Haziran) 2018, s. 288

[29] Seyidzadə M., İslam olduğu kimi, Bakı, 2011, s. 110

etmək lazımdır ki, nəsihət vasitəsi ilə tərbiyə məsələsində ifrata və israfa yol verməmək olmaz.

Bu fəslin ikinci paraqrafında islami tərbiyədə vaxt məfhumu və tədricilik prinsipindən bəhs edilir. Bildirilir ki, kainat müəyyən bir zaman çərçivəsinə daxildir, yəni əvvəli və sonu vardır. Kainatın bir zərrəsi olan bəşər övladı da müəyyən bir vaxt, zaman əhatəsində mövcuddur. Qurani-Kərim vaxt və ölçü məfhumuna biganə qalmır, ona böyük önəm verir və yeri gəldikcə, insanlara bu haqda müəyyən mesajlar göndərir: *"O, göyləri, yeri və onların arasındakıları altı günə xəlq edən, sonra ərşi yaradıb ona hakim olan Rəhmandır..." [Əl-Furqan: 25/59]*

Bu ayə ləfz və ya məna cəhətdən Qurani-Kərimdə yeddi dəfə təkrar olunmuşdur. İnsan, vaxtı layiqincə dəyərləndirmək və ondan səmərəli istifadə etməklə dünyadakı işlərini tənzimləyib qaydaya saldığı kimi, eyni zamanda axirət səadətini də qazanmış olur.

Tərbiyədə tədricilik prinsipinə gəlincə, o, tərbiyəçinin hikmət, qüdrət, helm və gözəl rəftarına dəlalət edən vasitələrdən biri hesab olunur. Məhz bunun vasitəsilə əqli mühakimələr, qaneedici dəlillər və açıq sübutlarla bir fikirdən digərinə keçilir və bununla da tərbiyə üçün gözəl zəmin yaradılır. İbrahim (ə), Yusif (ə), Musa (ə) peyğəmbərlərin həyatından nəql edilən rəvayətlər və şərabın haram edilməsi ilə bağlı ayələr buna misal ola bilər. Bütün bunlar insan cəmiyyətinə çox ciddi nəsihət və mesajdır. Belə ki, Allah-Təala müqəddəs kitabında insanlara müəyyən addımları atdıqları zaman götür-qoy etməyi tövsiyə edir.

Yuxarıda deyilənləri təhlil edərək belə bir nəticəyə gəlmək olar ki, islami tərbiyədə vaxt məfhumu və tədricilik prinsipi bir-birindən ayrı deyil, əksinə, bir-biri ilə sıx bağlı olan məfhumlardır.

Vaxtın tənzimlənməsində insanın öz istirahəti üçün müəyyən zaman ayırması da mühüm şərtlərdən biridir, çünki insanın cisminin də onun üzərində haqqı vardır. İmam Əli (ə) buyurur: *"Qəlblərinizə də rahatlıq verin, çünki qəlb istirahət etmədikdə kor olur".*[30]

İnsanın yaşadığı vaxt və ya zaman üç qismə bölünür: keçmiş, indiki, gələcək və ya dünən, bu gün, sabah. İslam düşüncəsi hər bir işi zamanında yerinə yetirməyin vacibliyini qeyd etməklə bugünkü işi sabaha saxlamağı qəti şəkildə pisləyir: çünki bu gün əkin vaxtıdır, sabah isə biçin vaxtı.

---

30 يوسف القرضاوي، الوقت في حياة المسلم، القاهرة، ١٤١٧هـ.، ١٩٩٦، ص. ٢٣

Peyğəmbər (s) səhabədən birinə belə buyurdu: *“Beş şeyi itirməmişdən əvvəl beş şeyin qədrini bilin: ölümdən əvvəl həyatın, xəstəlikdən əvvəl sağlamlığın, vaxtı itirməzdən əvvəl boş vaxtın, qocalıqdan əvvəl cavanlığın, kasıblıqdan əvvəl zənginliyin”.*[31]

Üçüncü paraqraf ticarət əxlaqı və onun insan tərbiyəsində rolu mövzusuna həsr olunmuşdur. İctimai və sosial durumundan asılı olmayaraq hər bir insan ehtiyaclarını ödəməkdən ötrü istər-istəməz digərləri ilə müəyyən münasibətlərdə və əlaqələrdə olur. Həmin əlaqələrdən biri və bəlkə də ən mühümü ticari əlaqələrdir. Ticarətin qaydalarına uyğun olaraq bu əlaqələr zamanı hər bir kəs ya satıcı, ya da alıcı rolunda ticarətlə məşğul olur. Ən doğru və ən yaxşı əxlaqi və o cümlədən ticarətlə bağlı qaydalar da Allahın sonuncu və ən mükəmməl kitabı olan Qurani-Kərimdə və Rəsulullahın (s) hədislərində toplanmışdır. Allah-Təala Qurani-Kərimdə ticarət və alış-veriş haqqında belə buyurmuşdur: *“... Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir ...” [Əl-Bəqərə: 1\275]* Peyğəmbər (s) isə belə buyurmuşdur: *“Alış-verişdə ölçü və çəki azaldılanda Allah insanları qıtlığa düçar edər”.*[32]

Yaratdıqlarının bütün ehtiyaclarından xəbərdar olan Allah-Təala, hətta Həcc mövsümündə də insanlara ticarət etməyə icazə vermişdir.

*“Ticarətdə doğruluq ən əsas amildir. Doğruluq-satıcının çəki və ölçüdə hiylə etməməsi, malın keyfiyyəti və qiyməti haqqında doğrunu söyləməsi, malı müştəriyə vaxtında təqdim etməsi, alıcının isə borcunu vaxtında ödəməsidir”.*[33]

Dördüncü paraqrafda fikir və düşüncə, mükafat və cəza mövzusu araşdırılır. Burada qeyd olunur ki, insan öz daxilində ilahi cövhər daşıdığından İslam fərd olaraq onun şəxsiyyət və ictimai həyatdakı yerinə böyük önəm vermişdir. İnsanı insan edən Yaradanın ona ruhu üfürməsi (Əs-Səcdə: 32/9), onu ən gözəl biçimdə yaratması (Ət-Tîn: 95/4), yer üzərində Öz xəlifəsi etməsi (Əl-Bəqərə: 2/70), ona şərəf və izzət bəxş etməsidir (Əl-İsra: 17/70).

---

[31] يوسف القرضاوي، الصحوة الاسلامية بين الاختلاف المشروع والتفرق، القاهرة، ٢٠٠٨، ص٦٦؛ https://www.muminem.org

[32] Kərimi H., İslamda günahlar və cəzalar, (tər. Əli Nur), 2007, s. 22

[33] Karagöz, Doç .Dr. İsmail, Kur’anda Sıdk Kavramı ve Sadık İnsan, Diyanet İlmî Dergi, Ankara 2001, s. 114

İnsan Allah-Təalanın yaratdığı qəribəliklər haqqında düşünməyə, onların mahiyyəti barədə fikirləşməyə meyl edir. Allah-Təala insanın fitrətində mövcud olan bu xüsusiyyəti nəzərə alaraq müqəddəs kitabında onu müəyyən məqamlarda yaradılış və onun səbəbləri barədə düşünməyə, kainatın sirləri haqqında fikirləşməyə dəvət edir.

Mükafat və cəza Quranın cəmiyyəti həm də cinayətdən, terrorizmdən qorumaq üçün istifadə etdiyi tərbiyə vasitələrindən biridir. Bu vasitə ilə Qurani-Kərim insanın işlədiyi hər bir əmələ layiqincə, qədərincə və ədalətli şəkildə mükafat və cəza verməyi lazım bilir və bununla da insanları yaxşı işlərə sövq edir, pis işlərin aqibətinin ağır olacağını onlara xəbər verir. Bu cür mükafatlandırma və cəza üsulu özünün tam ədalətli həllini Qurani-Kərimdə tapır. Təfsir alimlərinin və Quran mütəxəssislərinin ən qorxulu ayələr hesab etdikləri "Əz-Zəlzələ" surəsinin 7-8-ci ayələrində Allah-Təala belə buyurur: *"Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir)".*

Beşinci paraqrafda qissə, zərbi-məsəl, hikmətli sözlər, sual və cavab mövzuları təhlil edilir. Göstərilir ki, tərbiyələndirmə prosesində mühüm vasitələrindən biri də qissə və rəvayətlərin nəqli, yerinə görə onlardan istifadə edilməsidir. Bu vasitə istər uşaqların, istərsə də böyüklərin, bir sözlə, cəmiyyətin hər bir üzvünün tərbiyələndirilməsində mühüm əhəmiyyətə malikdir. İnsan dinlədiyi rəvayətlərdən təsirlənmək və tərbiyələnməklə yanaşı, həm də onlardan həzz alır, onların üslub gözəlliyinə heyran olur. Hikmət dolu rəvayətlərin təsiri altına düşən hər bir şəxs onlardan müəyyən nəticələr çıxarır və həyat tərzində onları əsas tutmağa çalışır. Yaratdıqlarının bütün xüsusiyyət və ehtiyaclarını gözəl bilən Uca Xaliq onları həqiqət yoluna dəvət etmək üçün hikmət dolu Kitabından zaman-zaman qısa və ya geniş rəvayətlər nəql edir.

Quranda istifadə olunan tərbiyə vasitələrindən biri kimi məsəl çəkməni göstərmək olar. Təqdim olunan həmin məsəllər insanı düşüncələrə daldırır, onu istər dünya, istərsə də axirət həyatı ilə bağlı fikirləşməyə dəvət edir və o, konkret misalların təsiri nəticəsində hidayət yolunu müəyyənləşdirir. Əbu Hilal əl-Əsgəri bildirir ki, bütün hikmətli sözlər məsəl adlanır. *"Əgər danışan şəxs fikirlərini gözəl şəkildə ifadə etmək*

*istəyirsə, dediklərinin mənasına uyğun məsəllərə müraciət etməlidir".*[34] Məsəl gətirməyin, bənzətmələr aparmağın həddən artıq yüksək intellekt və hazırlıq tələb etməsini, bu işdə müəyyən uyğunluğun olmasının vacibliyini nəzərə alsaq, məsələ verilən dəyərin nə qədər böyük olduğunu anlamış olarıq. Allah-Təala Qurani-Kərimdə bu barədə belə buyurur: *"Biz bu məsəlləri insanlar üçün çəkirik. Onları yalnız (haqqı) bilənlər anlayarlar" [Əl-Ənkəbut: 29/43].*

Qurani-Kərimin tərbiyə vasitələri arasında sual-cavabın da xüsusi əhəmiyyəti vardır. Söhbət zamanı danışanın dinləyicilərə hər hansı bir məsələ ilə bağlı ünvanlandığı sual onların diqqətini cəlb edir və tez bir zamanda ona cavab axtarmağa başlayır və ya danışanın ona cavab verməsinə ümid bəsləyirlər. Bu zaman bütün diqqət həmin məsələyə yönəlir, danışanla dinləyicilər arasında möhkəm bir rabitə yaranır.

Altıncı paraqrafda elm və ədəb, səbir və ədalət məsələsindən bəhs olunur. Burada bildirilir ki, islam düşüncəsinə görə, elm mövcudluğun həqiqətinin dərk edilməsidir və Allah-Təala onu sevdiyi bəndələrin qəlbinə doldurur. Uca Allah elm və bilik kəlməsini Qurani-Kərimdə dəfələrlə təkrar etməklə onun əhəmiyyətini göstərir.

Uca Rəbbimiz Qurani-Kərimi nazil edərkən ilk əmrlərindən biri insanı elmə dəvət etmək olmuşdur. İslamda elm sahiblərinə verilən qiymət və məqam bütün dünya dinlərində olduğundan xeyli fərqlidir. Alimlər həqiqətə xidmət, bəşəriyyətin hərtərəfli inkişafını təmin və mədəniyyəti inkişaf etdirdikləri üçün o qədər böyük rola malikdirlər ki, onlar peyğəmbərlərin vərəsələri adlandırılmış və Allah-Təala onların adlarını mələklərin adları ilə bir cərgədə çəkmişdir.

İnsan elm əldə etdikcə əqidə və iman cəhətdən möhkəmlənir, idrak və təfəkküründə sağlam qüvvə inkişaf edir. *"Allah-Təala insanlar arasından seçdiyi elm adamlarını xüsusi şəkildə mükafatlandırır, bəsirət gözünü açır".*[35]

*"İslamda uşaqların tərbiyəsinə gəldikdə, onun başlanğıcı üçün müəyyən yaş həddi təyin olunmamışdır. Bu məsələ onun ağıl və təfəkkürünün inkişaf mərhələləri ilə bağlıdır".*[36]

---

34 ابو هلال العسكري، جمهرة الامثال، بغداد، ١٩٩١ م.، ص. ٣٢

35 سهام مهدي جبار، الطفل في الشريعة الإسلامية ومنهج التربية النبوية، ١٩٩٧، ص. ٣٧٢_٣٧٣

36 حلبي عبد المجيد، التربية الإسلامية للأولاد منهجاً وهدفاً وأسلوباً، بيروت، ١٤٣٤، ص. ١٩٤

Ünsiyyət və rəftar zamanı ədəbin gözəlliyi ən qiymətli sərvət və sərmayə kimidir. Fərdlər arasında sağlam, ehtiramlı və möhkəm rabitənin bərqərar olunması üçün ədəbin öyrənilməsi və gündəlik fəaliyyətdə tətbiqi çox vacib şərtlərdən hesab olunur. Hər bir şeyin öz bəzəyi vardır: Elm helm ilə, şücaət güzəşt və əfv ilə, sərvət xərcləmək və bağışlamaq ilə dəyər qazandığı kimi əsil-nəcabət də ədəb ilə dəyər kəsb edir. Ədəb, hətta münasib olmayan əsli və kökü belə ört-basdır edər. İmam Əli (ə) buyurmuşdur: *"Gözəl ədəb nəsəbin çirkinliyini örtər"* və ya *"Hər şey çoxaldıqca ucuzlaşar, lakin ədəb çoxaldıqca dəyəri artar".*[37]

İslam bizi rasional və tənqidi təfəkkürə dəvət edən bir dindir. Buna görə də onun mühüm fundamental məqsədlərindən biri də insana mərhələliyin və zamanın əhəmiyyətini dərk etdirməkdir. Məlum olduğu kimi, tələsmək ümumilikdə insana, xüsusilə də, gənclərə aid xarakterik xüsusiyyətlərdəndir. Həqiqətən də, tələsmək və səbirsiz olmaq yaşadığımız dövrün mühüm əlaməti hesab olunur. Günümüzdə gənclərin "bu gün buğda əkib, sabah onu biçmək" istəkləri ilə bağlı tendensiya diqqəti cəlb edir. Lakin Allah-Təalanın yaradılışdakı iradəsi başqa bir şəkildə təzahür edir: əkilmiş bir ağac böyümək üçün müəyyən mərhələləri keçir, sonra isə bar verir.

Qurana görə insan tərəfindən meydana gələn ən təhlükəli ədalətsizlik onun özü, ətraf aləm və cəmiyyət arasında daxili qarşılıqlı münasibətləri başa düşməyə qadir olmamasıdır. Nəticədə insan öz bacarıqlarını və potensial imkanlarını qaydaya uyğun necə istifadə edəcəyini bilmir və problemlərlə üz-üzə qalır.

Qurani-Kərimin tərbiyə vasitələrindən biri də səbir və dözümdür. Bəla və çətinliklər qarşısında dözümsüzlük etmək insanın bədbəxtliyinə gətirib çıxaran bir xislət olaraq böyük qəbahətlərdən hesab olunur. Peyğəmbər əleyhissəlam qüdsi hədislərdən birində Allah-Təalanın belə buyurduğunu bildirir: *"Qəza-qədərimə razı olmayan, verdiyim nemətlərin şükrünü yerinə yetirməyən və göndərdiyim bəla qarşısında səbir etməyən şəxs özünə Məndən başqa bir tanrı axtarsın!"*[38]

---

[37] Reyşəhri M., Mizanul-Hikmət (tər. M. Ağaverdiyev), Bakı, "Zərdabi", 2014, c.1, s. 72

[38] Nəraqi Ə., Meracu səadə (tər. M. Ağayev), Bakı, 2012, s.460

Səbir özündə bir çox əxlaqi dəyərləri ehtiva edir. Təsadüfi deyil ki, Peyğəmbərdən (s) iman haqqında soruşduqda, O belə cavab vermişdir: *"İman səbirdən ibarətdir"*.[39]

İslami tərbiyənin ən mühüm prinsiplərindən biri də fəzilətlərin ən üstünü və kamalın ən son həddi olan ədalət prinsipidir. Ədalət olan yerdə bütün fəzilətlər özünü göstərə bilir. Ədalətin əksi isə zülmdür və o da bütün qəbahətlərin mənbəyidir. Məhz ədalət sayəsində işlər layiqincə tənzimlənir, insanın nəfsindəki müxtəlif qüvvələr arasında uyğunluq yaranır, onlardan biri digərinə qarşı çıxmır. Ədalətin məqsədi hər bir şeyi ifrat və təfritdən qaytarıb orta həddində saxlamaqdır.

Qurani-Kərimin tərbiyə vasitələri ilə bağlı ayrı-ayrılıqda nəzərdən keçirdiyimiz müddəa və prinsipləri, demək olar ki, Peyğəmbərin (s) bu hədisində öz əksini tapmışdır: *"Allah bir bəndəni sevərsə, ona səkkiz xisləti ilham edər: 1) gözünü camaatın məhrəmlərindən (namusundan) örtmək; 2) Allahdan qorxmaq; 3) həyalı olmaq; 4) öz əxlaqını salehlərin əxlaqına oxşatmaq; 5) səbirli və dözümlü olmaq; 6) əmanəti sahibinə qaytarmaq; 7) düz danışmaq; 8) comərdlik etmək"*.[40]

İslam dini dünyaya gözəl əxlaq və doğru-düzgün davranışlar vasitəsilə yayılmışdır. Əzəmətli qalaların qalın divarları bu gözəlliklərin insanların qəlbinə daxil olmasına mane ola bilməmişdir. Bu gün bütün dünya bizim bu təmiz və dürüst əxlaq normalarımıza söykənən münasibətləri görmək istəyindədir. Dünyanın ədalətsizlik içərisində çabaladığı bu gərgin zamanda insanların axtardıqları qurtuluş yolu Allahın sevimli Rəsulu Məhəmməd (s) peyğəmbərin nurlu yoludur. Belə olduğu halda, kitabların cildləri arasındakı İslamı, onun əxlaq normalarını gündəlik həyatımızda tətbiq etməklə həm özümüzün, həm də gələcək nəslin tərbiyə olunmasına tələsməliyik!

**Nəticədə** dissertasiya işinə yekun vurulur və ümumiləşdirmələr aparılır.

"Qurani-Kərimin tərbiyə metodu və vasitələri" mövzusundakı tədqiqatlar aşağıdakı nəticələrə gəlməyə imkan verir:

---

39 https://www.gozelislam.com/exlaq/224-sebir.html; Nəraqi Ə., Meracu səadə (tər. M. Ağayev), Bakı, 2012, s.461

40 Qummi Ş. A., Zubdətul-əhadis, (tər: Xəlilov M.), 2004, c. 2, s. 227

1. İnsan cisim və ruhdan ibarət bir varlıqdır. Cismin sağlamlığı və normal yaşaması üçün müəyyən ehtiyacları olduğu kimi, ruh sağlamlığı da bu və ya digər dərəcədə tərbiyə olunmağa ehtiyac duyur.

2. İnsan qeybə imanla öz ruhunu tərbiyə etmək və əxlaqını paklaşdırmaqla digər canlılardan seçilərək yüksək mərtəbədə qərarlaşır. Kainatda xəlq olunmuş hər bir varlıq müəyyən ölçülər və çərçivələr daxilində olduğundan insanın hissiyyat orqanlarının da müəyyən, məhdud imkanları vardır.

3. Qəzavü-qədərə inanmaq imanın əsaslarından biri olduğu kimi insanın tərbiyə olunmasında da mühüm əhəmiyyətə malikdir. Bəşər övladı qəzavü-qədərə inanıb işlərini Yaradana təslim etdiyi zaman qəlbi sakitləşir, nəfsi aram tapır və ruhu dincəlir.

4. İnsanların ruhi tərbiyəsində mühüm yer tutan üsullardan biri də bütün aşkar və gizli işlərin Allahın nəzarətində olduğunu dərk etməkdir. Hər bir şəxs bilməlidir ki, o, dünyada nəzarətsiz buraxılmamış, bütün əməlləri qeydə alınmaqdadır.

5. Ağıl elmlərin öyrənilməsinin əsas şərtidir. İslam düşüncəsinə görə, instinktiv və iktisabi (əldə edilmiş) növlərinə bölünmüş ağlın hər birinin özünəməxsus xarakteri vardır. İslam yeni və demokratik bir din olaraq kor-koranə etiqadın əleyhinədir. Bu din insanı təfəkkür və düşüncəyə dəvət edir.

6. İslam kor-koranə təqlidçilik və təəssübkeşliyin əleyhinə olmaqla ağla imanla küfr arasında seçim etmək imkanı yaradır. Təsadüfi deyildir ki, Uca Yaradan ayələrində bir çox məsələlərdə məhz ağıl sahiblərinə müraciət edir. İslam tərbiyə prinsipinə görə ağıl kainatda cərəyan edən hadisələr arasında məntiqi bir əlaqə qurmağa və bunun əsasında bir nəticə əldə etməyə çalışır.

7. İslami tərbiyədə cismin tərbiyəsi mühüm yer tutur. İnsan cismi onun ruhunu, ağlını, hissiyyat üzvlərini hifz edən bir damara bənzəyir. Körpənin ana bətnində olduğu dövrdən başlayaraq onun cismani sağlamlığının keşiyində duran Quran bu məsələdə çox ciddi mövqedə dayanaraq “Sağlam müsəlman xəstə müsəlmandan daha yaxşıdır” prinsipini irəli sürür.

8. İslami tərbiyədə mühüm üsullardan biri də hədiyyələşmək və comərdlik nümayiş etdirməkdir. Hədiyyə qarşılıq gözləmədən, xoş niyyət

və məhəbbətin ifadəsi olaraq insanların bir-birinə verdikləri maddi bəxşişdir.

9. İslam düşüncəsi insanın tərbiyələnməsində mühüm amillərdən biri kimi hər kəsin öz həddini bilməsi, ona aid olmayan işlərə müdaxilə etməməsi və sirrin qorunması prinsiplərinə böyük diqqət yetirir. İnsan öz sirrini qoruya bilmirsə, digərlərini bu işə görə məzəmmət etməyə haqqı yoxdur.

10. Quranın tərbiyə vasitələri içərisində gözəl nümunə və gözəl nəsihət xüsusi yer tutur. Quran Peyğəmbərin (s) həyat tərzini ən gözəl nümunə, Quran hökmlərini, peyğəmbərlərin (ə) və alimlərin moizələrini isə ən gözəl nəsihət hesab edir.

11. Vaxtın bölgüsünün cəmiyyətin həyatında və onun tərbiyələnməsində mühüm yer tutduğuna işarə edən Uca Yaradan müxtəlif ayələrdə gecəyə, gündüzə, sübh çağına, gün çıxan vaxta, əsr zamanına and içir, bununla da insanlara bir mesaj göndərir. Xəlq etmə imkanları sonsuz olan Rəbbimiz Özü də yaradılışda bir tədriciliyə və vaxt məfhumuna riayət etmiş, kainatı bir an ərzində deyil, bir günü bizim ölçülərlə min ilə bərabər olan altı gün müddətində xəlq etmişdir.

12. Cəmiyyətin həyatının tənzimlənməsində və tərbiyələnməsində onun ticarət əxlaq və normalarına riayət etməsinin böyük əhəmiyyəti vardır. İnsan öz yaşayışını rahatlıq, dinclik içində davam edə bilmək və ehtiyaclarını ödəmək üçün qanunauyğun şəkildə ticarət etmək bacarığına malik olmalıdır.

13. Quranın tərbiyə vasitələri arasında fikir və düşüncə, mükafat və cəza məfhumları da mühüm yer tutmaqdadır. Allah-Təala insanı yaratmış olduğu qəribəliklər haqqında düşünməyə, onların mahiyyəti barədə fikirləşməyə dəvət etməklə onun qəlbində yəqinlik və iman nuru yaradır.

Mükafat və cəzanın cəmiyyət həyatına tətbiq edilməsi ilə işlədiyi hər bir əmələ layiqincə və ədalətli şəkildə mükafat və cəzanın veriləcəyini insana təlqin edən Quran onun tərbiyə olunmasında belə bir vasitənin mühüm yer tutduğunu vurğulayır.

14. Əsasən beş prinsip-halal, haram, möhkəm, mütəşabeh və məsəl prinsipləri əsasında nazil edilmiş Qurani-Kərim insanı məsəl və hikmətli sözlər, o cümlədən sual və cavab vasitəsilə tərbiyə etməyə böyük önəm vermişdir. Allah-Təala Quranın müxtəlif ayələrində tarixin bu və ya digər dönəmlərində baş vermiş olayları və həyatımızı əhatə edən məfhumları

məsəl çəkməklə bizi ibrət götürməyə dəvət edir və belə bir vasitə ilə tərbiyələndirməyə üstünlük verir.

15. Cəmiyyəti rasional və tənqidi təfəkkürə dəvət edən İslam elm və ədəbin, səbir və ədalətin insan tərbiyəsində tutduğu yerinə önəm vermişdir. Quran bu baxımdan elm adamlarına və ədəb əhlinə böyük diqqət yetirir, səbirli və ədalətli olmağı insanın tərbiyə olunmasında mühüm vasitələrdən hesab edir. İslam insanın tərbiyə olunmasında və elm almasında yaş məhdudiyyəti qoymur, onun beşikdən qəbirə qədər öyrənməsini mühüm hesab edir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:**

***Azərbaycan dilində:***

1. İslamda övlad tərbiyəsində ailənin rolu, Azərbaycanın görkəmli şərqşünas alimi, professor Aida İmanquliyevanın 75 illik yubileyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları, Bakı, 2014, s. 344-346 İSBN: 978-9952-490-57-2
2. Ailə kitabxanası və onun islami tərbiyədə rolu, AMEA-QMİ "İslam maarifçiliyi və müasir dövr" Beynəlxalq elmi konfransın materialları, Bakı, 16-17 aprel, 2015, s. 596-602
ISBN: 978-9952-875-81-2
3. İslami tərbiyədə vaxt məfhumu və tədricilik prinsipi, AMEA-nın 70, Əlyazmalar İnstitutunun 65 illik yubileyinə həsr olunmuş XIV Respublika elmi konfransının materialları, Bakı, 22-24 may, 2015, s. 244-247
4. Quran və hədislərdə ticarət əxlaqı, Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi, № 23, iyun (Haziran), Bakı, 2015, s. 353-362 ISSN 2225-5567
5. Hədiyyələşmək və comərdlik Quranın tərbiyə üsullarından biri kimi, Bakı Dövlət Universiteti Mədəni müxtəliflik: Dünya və Azərbaycan, Beynəlxalq elmi-praktik konfrans 29 aprel, Bakı, 2016, s. 114-117
6. Quranda imana dəvətin əqli qənaətlər əsasında yerinə yetirilməsi, "İslam həmrəyliyi-2017: reallıq və perspektivlər" mövzusunda

Respublika elmi-metodik konfransının materialları 25-26 aprel, Bakı, 2017, s. 33-35

7. Quranın cismani tərbiyə metodu, Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, 4 (104), Bakı, 2017, s. 521-523
İSSN 2218-7588; E-ISNN 2219-5513
8. Ruhun qeybə iman və qəzavü-qədərlə razılaşmaqla tərbiyəsi, BDU Şərqşünaslıq fakültəsinin 95 illik yubileyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları, Bakı, 2017, s. 171-173
9. Gözəl nümunə, nəsihət, əhdə vəfa və sirri qorumaq islami tərbiyənin metodları kimi, Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi, Bakı, № 29, iyun (Haziran) 2018, s. 287-293 ISSN 2225-5567

***Rus dilində:***

10. Пословицы, мудрые слова и вопросы-ответы как одни из методов воспитания Корана, Національний педагогічний университет імені М.П. Драгоманова, ВГО Українська академія наук, Гілея, Випуск 114 (№ 11), Київ, 2016, ст. 165-167 ISSN 2076-1554
11. Нравственное воспитание души через исполнение обрядов в Коране, Ужгородський Національний Університет, Закарпатські Филологічні Студіі, Випуск 3, Том 3, УДК 372.8:21, Ужгород, 2018, ст. 59-64 ISSN 2524-0390

***Ərəb dilində:***

12 العلم والأدب والصبر والعدالة من أساليب التربية في القرآن الكريم، جامعة الأزهر، مجلة كلية اللغات و الترجمة العدد الثاني عشر- الجزء الثاني، القاهرة، يناير-٢٠١٧، ٣٨٠-٣٩٤ ص. ISSN: 2090-8504

Dissertasiyanın müdafiəsi “01” iyul 2021-ci il tarixində saat $14^{00}$-da Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 4.03–Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1141, Bakı şəhəri, Əhməd Cəmil küçəsi 41 A. Azərbaycan İlahiyyat İnstitutu

Dissertasiya ilə Azərbaycan İlahiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan İlahiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “27” may 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.05.2021

Kağızın formatı: A5

Həcm: 43292

Tiraj: 100